# Dinlə mədəniyyətin qarşılıqlı əlaqəsi

*İllərlə yasaq olan dinimiz, qapıları üzümüzə bağlı olan məscidlərimiz, keçirilməsinə qadağalar qoyulmuş dini ayinlərimiz...*

Sovet İmperiyası dövründə qeyd edilməsi mümkün olmayan adət-ənənələrimizə bu gün dövlət səviyyəsində icazə verilmişdir. Xalqımız öz dininin, dilinin adət-ənənələrinin sahibidir. Dövlət səviyyəsində qəbul edilmiş dinimizin illərlə bizə yasaq olunması şübhəsiz ki, məişətimizdə, adət-ənələrimizdə, hətta geyimimizdə belə öz təsirini göstərməkdədir. Ölkəmizin hər bir vətəndaşının dinimizə uyğun şəkildə yaşaması mümkün olsa da, illərlə bizə aşılanan, milli mentalitetimizə uyğun olmayan məişət tərzi, geyimlər, üzdən iraq bəzi adətlər məişətimizə daxil olmuşdur. Əlbəttə, İslam dininin bütün qayda-qanununa əməl eləmək mümkün deyil. O qanunların, adətlərin bəzilərini məişətimizdə yaşatmaq da mümkün deyil (çarşab örtmək, siqə evlənmək və s.). Əsasən dinin tələblərinə uyğun olan bir çox mənəvi dəyərlərimiz var ki, belə dəyərlərin bütün dövrlərdə qorunub saxlanması vacibdir. Bu baxımdan dinimiz qadınları çox yüksək qiymətləndirmişdir.

Bir şəxs həzrəti Rəsulun yanına gəlib soruşur:

– Ey Rəsulullah, insanlar arasında ən yaxşı rəftar edilməyə kim layiqdir?

– Ana.

– Sonra kim?

– Anadır.

– Ondan sonra?

– Yenə də ana

– Bəs sonra kim?

– Ata.

Dünyaya sübut olunmuşdur ki, dinlərin ən kamili İslam dinidir. İslam dini qadına yüksək dəyər vermiş, qadınların isə ən dəyərlisi dünyaya çoxlu uşaq gətirənidir – buyurmuşdur. Bu dini ilk qəbul edən də məhz qadın (Peyğəmbərimizin zövcəsi Xədicə Kübra) olmuşdur.

Bu gün öz dinimizin, öz dilimizin sahibi olsaq da yad təsirlərdən uzaqlaşa bilmirik. Buna səbəb təkcə illərlə dinimizin yasaq olunması deyil. Yerləşdiyimiz coğrafi mövqe – Şərqlə Qərbin kəsişdiyi ərazidə yaşamağımızın da bu baxımdan rolu böyükdür. İstər-istəməz Şərq adət-ənənələri ilə birgə Qərb adət-ənənələrinə də meyl edirik. Son 10 ildə bu meyllilik daha qabarıq şəkildə özünü büruzə verməkdədir. Biz hər hansı bir sahədə oluruqsa olaq öz milliliyimizi, dinimizin buyurduğu yaxşı hər nə varsa qoruyub saxlamağı bacarmalıyıq.

Hər birimizin ən doğma, ən müqəddəs saydığımız bir varlıq var ki, o da anadır. Cəmiyyətimizin mövcud adətləri gələcəkdə müqəddəs "ana" adını daşıyacaq yeniyetmə qızlarımıza hansı tərbiyəni verir, onlara nələr aşılayır? Məlumdur ki, cəmiyyətimizdə baş verən hər dəyişiklik yeniyetmələrə bilavasitə təsir edir. Onların gələcəkdə öz həyatlarını, sağlam ailə qura bilmələri bizim onlara düzgün tərbiyə verməyimizdən çox asılıdır. Hazırkı dövrdə yeniyetmə qızlarımıza nümunə ola biləcək qadınlarımız çoxdur. Lakin cavanlar həmişə yeniliyin tərəfindədirlər. Ətraf aləmdə baş verən hər bir dəyişiklik onları tezliklə öz təsiri altına alır.

Bir vaxtlar nənələrimiz yeni doğulmuş körpəni öz ətəklərinə və ya kəlağayılarına bükər, təzə ayaq açan körpə anasının balağından tutub yeriyərdi. İndi qızlarımız yeni doğulan körpəni ətəyinəmi bükməlidir və ya körpə ayaq açarkən onun balağından tutub gəzə bilərmi? Bu baxımdan küçədə yarıçılpaq addımlayan ananın müqəddəsliyinə də şübhə edirsən. Qadın açıq-saçıq geyimi ilə "şeytan" hisslər oyatmırmı?

İndiki şou-biznes aləmi yeniyetmə qızlarımızın əxlaqına, mənəviyyatına daha tez nüfuz edir. Yeniyetmə qızlar gündəlik həyatında onlara oxşamağa çalışırlar.

Dinimiz qadına bu qədər dəyər verdiyi halda yeniyetmə qızlarımızın yad təsirlərə düşmələrinə ciddi narahat olmalıyıq.

Dünyada mövcud olan çoxsaylı xalqların milli geyimlərindən bəlkə də ən gözəli milli geyimlərimizdir. Müasir geyimlərimizdə bu geyimlərin bircə nümunəsini belə tapmaq mümkün deyil. Görün biz milli geyimlərimizi hansı geyimlərlə əvəzləmişik? Hind xalqının şanlı qızı İndira Qandi bütün rəsmi məclislərə sari ilə getmirdimi? Fələstin xalqının lideri Yasir Ərafat ömrünün son gününə qədər ərəb çalmasını başında gəzdirmədimi? Nə gizlədim, müasir dövrümüzdə öz milli geyimini qoruyub saxlamış xalqlara qibtə edir, bu baxımdan özbək xalqına ürəkdən "əhsən" deyirəm.

Təəssüf ki, ögeyləşmə təkcə bizim geyimimizə deyil, məişətimizə, mədəniyyətimizə, musiqimizə də öz ağır zərbələrini vurub. Bu gün ekranda, efirdə, bir sözlə, bizi əhatə edən mühitdə eşitdiyimiz üzdəniraq ifalar, sözün əsil mənasında nə Şərq, nə də Qərb üslubunun tələblərinə cavab verə bilməyən söz yığınından, bir "melodiya"nın üç dəfə təkrarından ibarət olan "bic" mahnılar beynimizi, əsəblərimizi, ən başlıcası, yeniyetmələrimizin zövqünü korlamaqdadır. Əgər bir kanalda tanınmış hər hansı muğam ifaçısı muğam ifa eləyirsə, yeniyetmə köklərimizdən, qaynaqlarımızdan süzülüb gələn muğamları duya bilməyərək başqa kanalda nümayiş olunan bayağı klipə baxmağı ondan vacib sayır, hələ bir ifa olunan muğama dodaq da büzürsə bu bizim faciəmiz deyilmi? Cəsarətlə deyə bilərəm ki, heç bir ölkənin musiqisi bizim musiqimiz, muğamlarımız qədər zəngin deyil. Niyə öz zəngin, mənəvi dəyərlərimizi bu qədər ucuzlaşdırırıq? Axı hər bir xalq ilk növbədə milli musiqisindən və milli geyimlərindən tanınır.

Ata-babalarımızın bizə miras qoyub getdiyi torpaqlarımızı itirə-itirə öz milliliyimizi, dinimizi, bir sözlə, bütünlüklə yaxşı hər nəyimiz varsa özümüzdən uzaqlaşdırmırıqmı?

**Məmməd Əliyev**